**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Bakalavr hazırlığı üçün**
**«Azərbaycan onomastikası»**
**fənninin**

# P R O Q R A M I

*Azərbaycan Respublikası Təhsil Nazirinin 30.01.2014-cü il tarixli əmri ilə təsdiq edilmişdir (əmr № 95)*

**Bakı – 2014**

**Tərtib edən:** *dos.Reyhan Yusif qızı Həbibli*

**Redaktor:** *prof.Sənubər Əlövsət qızı Abdullayeva*

**Rəyçilər:** *prof.Lalə Hüseyn qızı Quliyeva*
*prof. Qara İbrahim oğlu Məşədiyev*
*dos.Yaşar Əliş oğlu Məmmədli*

# İZAHAT VƏRƏQİ

Son illərdə dilçilərin geniş ekstralinqvistik kontekstdə dil hadisələrinin tədqiqinə marağı xeyli artıb. Hazırda insan fəaliyyətinin müxtəlif sahələrində dilin öyrənilməsinin vacibliyi hamı tərəfindən qəbul olunur.

Filoloq-bakalavrın ixtisas xarakteristikası onun aşağıdakı vəzifələrin həllinə hazırlığını nəzərdə tutur:

**Elmi-tədqiqat sahəsində:**

Dilin və ədəbiyyatın tarixi inkişafda və onların müasir vəziyyətində tədqiqi

**Praktik sahədə:**

Filologiya sahəsində bilik və bacarıqlardan istifadə ilə əlaqədar təhsil, mədəniyyət, idarəçilik müəssisələrində, KİV-də, mədəniyyətlərarası kommunikasiya sahəsində və sosial-humanitar fəaliyyətin digər sahələrində praktik fəaliyyətin həyata keçirilməsi

«Azərbaycan onomastikası» kursu bakalavrın professional hazırlığına olan aşağıdakı tələblər əsasında tədris planına daxil edilir və «Müasir Azərbaycan dili» kursunu üzvi surətdə tamamlayır: «Filologiya üzrə bakalavr əsas ədəbi dili, dilin müasir vəziyyətini və inkişaf tendensiyalarını bilməli, ümumi dilçiliyin əsas anlayışları və terminlərindən istifadə edərək, dilin tarixini və müasir vəziyyətini təhlil etməyi bacarmalı, linqvistik analizin əsas metodlarını bilməli, seçdiyi ixtisasın tarixi, müasir vəziyyəti və perspektivləri barədə təsəvvürə malik olmalıdır».

Onomastika dilçilik, tarix və coğrafiyanın kəsişməsində formalaşan kompleks elmi bilik sahəsidir. Onomastik vahidlərin xüsusi şəkildə öyrənilməsinə ehtiyac XIX ortalarında meydana çıxmışdır. Xüsusi adlar leksikanın mühüm hissəsini təşkil edir. Onlar özünəməxsus xüsusiyyətlərə malikdir və digər leksik sistemlərlə üst-üstə düşməyən mürəkkəb sistemlər əmələ gətirir.

Fənnin məqsədi – onomastikanın nəzəri bazası, regionun onomastikası, xüsusi adların tarixi, inkişafı və işlənməsinin

qanunauyğunluqları ilə tələbələri tanış etmək, xüsusi adlar prizmasından ölkə tarixinə dair biliklər vermək, vətənə məhəbbət oyatmaq, fənlərarası əlaqələri genişləndirməkdir.

Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilib:

- tələbələrin dil hadisələrinin öyrənilməsinə marağının formalaşmasına təkan vermək;
- onomastikanın anlayış və terminləri, tədqiqat metodları, dilimizin onomastik leksikası tarixindəki əsas proseslərlə tələbələri tanış etmək;
- tələbələrin onomastikanın öyrənilməsi sahəsindəki linqvistik, linqvotarixi və linqvomədəni biliklərini sistemləşdirmək və dərinləşdirmək;
- şəxs adlarının dinamikasını izləmək;
- xüsusi adların toplanmasına və təhlilinə maraq oyatmaq;
- xalqın dil mənsubluğu, tarixi, ədəbiyyatı ilə onomastikanın əlaqəsini üzə çıxarmaq;
- onomastik materialın təhlili və müşahidələr əsasında tədqiqatçılıq vərdişlərini inkişaf etdirmək, faktik materialın işlənilmə texnologiyasını öyrətmək;
- tələbələrin regional onomastika üzrə ədəbiyyatla işləmək üçün bilik və vərdişlərini təkmilləşdirmək;
- qazanılmış bilik və bacarıqların şəxsi nitq praktikasında tətbiqi.

Əsas anlayışlar – onomastika, apelyativ, onim, onimiya, xüsusi ad, onomastikon, nominasiya, denotat, antroponimika, antroponim, toponimika, toponim, antroponimik formul, mikrotoponim, kosmonim, astronim, mifonim, hidronim, xrononim, xrematonim, praqmatonim, deminutiv, zoonim, fitonim, etnonim, nomenklatura, patronim, təxəllüs, ləqəb, teonim və s.

Tələbə bilməlidir:

- onomastikanın əsas anlayışlarını;
- onomastik terminlərin strukturunu;
- onomastik vahidlərin növlərini.

Tələbə bacarmalıdır:

- onomastik lüğətlərlə işləməyi;
- regionun onomastikası əsasında dil materialının öyrənilməsi və təsnifinə yönəlmiş tədqiqatçılıq fəaliyyəti aparmağı;
- yazılı və şifahi ədəbiyyatda xüsusi adların funksional-semantik xüsusiyyətlərini təhlil etməyi;
- tarixi, linqvistik və coğrafi analiz metodlarından istifadə etməklə xüsusi adların əmələgəlmə üsul və motivlərinin kompleks etimoloji təhlilini aparmağı.

Tədris prosesi təşkilinin əsas forması mühazirədir. Kursun strukturuna seminar məşğələləri də daxildir. Mühazirələrin məzmunu aşağıdakı didaktik tələblərə cavab verir:

- materialın sadədən mürəkkəbə doğru ifadəsi;
- materialın ifadəsində məntiqilik, dəqiqlik və aydınlıq.

**Onomastika bir elm sahəsi kimi**

Onomastikanın predmeti. Onun şöbələri və aspektləri. Onomastikanın əsas inkişaf mərhələləri. Onun fənlərarası xarakteri, digər elm sahələri ilə əlaqələri. Onomastikada ümumileksik hadisələrin spesifikası.

**Xüsusi ad dil kateqoriyası kimi**

Müasir dilçilikdə xüsusi adın spesifikası problemi. Onim anlayışı – terminin mənası. Ümumi və xüsusi isimlər arasında fərq. Xüsusi adların əsas nəzəriyyələri. İnsan həyatında xüsusi adların əhəmiyyəti. Xüsusi adın dildə, nitqdə və bədii mətndə rolu. Xüsusi adların növləri və onların əmələgəlmə üsulları. Xüsusi adların işlənmə, inkişaf və istifadə xüsusiyyətləri. Onomastik məkan. Onomastik sahə. Nominasiya prosesləri. Onomastik məkanda sistem əlaqələri. Onomastik sistemin inkişafı. Dil sistemində onimik leksikanın yeri. Apelyativ və onun onimləşməsi. Apelyativləşmə. Transonimləşmə.

**Onomastik tədqiqatın metodları**

Metod və metodologiya. Onomastik metod xüsusi adların tədqiqat üsulu kimi. Onomastikada tətbiq olunan əsas metodlar: təsviri, tarixi, struktur, müqayisəli, areal, semiotik, üslubi və s. Konkret onomastik tədqiqatda metodların uyğunlaşdırılması.

**Bədii mətnin onomastikası**

Xüsusi adlar bədii mətndə. Xüsusi adların bədii ədəbiyyatda öyrənilmə problemi: poetik onomastika. Xüsusi adların mətndə funksiyaları. Mətnin onomastik məkanı və xüsusi adların tipləri. Poeziyada xüsusi adlar. Bədii mətn başlıqlarının tipologiyası və semantikası. Birüzvlü, ikiüzvlü, çoxüzvlü adlar. Bədii əəbiyyatda xüsusi adın tərcüməsi problemi.

**Xüsusi adlar folklorda**

Folklorda xüsusi adların strukturu. Xalq mətnlərində xüsusi adların semantikası. Real və uydurma adlar. Folklor nümunələrində xüsusi adların funksiyaları

**Onomastikanın pedaqoji aspektləri**

Onomastikanın məktəbdə öyrənilməsinin idraki və tərbiyəvi əhəmiyyəti. Azərbaycan dili dərslərində onomastik leksika. Azərbaycan dili üzrə fakültativlərdə və dərnəklərdə onomastik problematika. Onomastika üzrə elmi-kütləvi və sorğu ədəbiyyatı.

**Onomastik terminologiya**

Onomastik terminlər və onların əmələ gəlməsi. Apelyativlər və determinativlər. Onomastik terminlərin sistemləri. İkiəsaslı terminlər.

**Antroponimika**

Antroponimika onomastikanın şöbəsi kimi. Regional antroponimikanın öyrənilmə tarixi. Antroponimlərin növləri: şəxs adı, ata adı, soyad, ləqəb, təxəllüs, kiçiltmə və əzizləmə adlar. Antroponimiyanın inkişafındakı əsas mərhələlər və proseslər. Antroponimik formul. Antroponimik sistem. Milli antroponimik sistemin yaranma mərhələləri. Adlandırma modelləri. Müxtəlif xalqlarda insana advermənin oxşar və fərqli cəhətləri. Adın sosial statusu. Uydurma adlar və tabu. Şəxs adlarının və soyadların tərkibində motivləşdirici əlamətlər. Müasir antroponimikanın problemləri. Milli antroponimlərdə dəyişikliklər (XX əsrin sonu, XXI əsrin əvvəlləri). Müasir adların seçiminin əsas meyarları. Niklər internet istifadəçilərinin spesifik adları kimi.

**Toponimika**

Toponimika onomastikanın şöbəsi kimi. Toponimikanın dilçilik, coğrafiya, tarix və s. fənlərlə əlaqəsi. Toponimikanın sahələri: ümumi, xüsusi, nəzəri, tətbiqi və s. Toponimiyada

«makro-» və «mikro-» anlayışları: makrotoponimika, mikrotoponimika. Toponimiyada anatomik leksika. Toponimik fon. Toponimlərin növləri və qrupları. Paleotoponimlər. Toponimlərin yaranma yolları. Coğrafi terminlər və onların əmələ gəlməsi. Ümumcoğrafi terminlər və yerli coğrafi terminlər. Regional toponimiyanın öyrənilmə tarixi. Regionun toponimik sistemləri. Azərbaycan toponimiyasının ümumi xarakteristikası. Azərbaycan toponimlərinin arealları.

**Etnonimika**

Etnonimikanın əsas anlayışları: «etnonim», «mikroetnonim», «makroetnonim», «avtoetnonim», «alloetnonim», «etnotoponim», «etnoxoronim» və s. Etnonimikanın əlaqədar olduğu elm sahələri arasındakı yeri və mövqeyi. Etnonimlərdə tarixi və linqvistik informasiya. Əsas nominasiya modelləri. Qeyri-rəsmi etnonimika və onun əsas anlayışları: «ləqəb-etnonimlər», «etnik ləqəblər», «peyorativ etnonimlər», «təkrar etnonimlər», «ekspressiv etnonimlər», «etnofolizmlər», «ektronimlər». Müasir etnonimikanın aspektləri. Etnonimlərin etimologiyası problemləri. Azərbaycan etnonimlərinin leksik-semantik və struktur-linqvistik xüsusiyyətləri.

**Kosmonimika və astronimika**

Kosmonimika və astronimikanın formalaşma tarixi. «Kosmonim» və «astronim» terminlərinin fərqi. Azərbaycan xalq astronimikası. Kosmik məkanın kiçik obyektlərinin nominasiyası. Bürclərin, ulduzların və planetlərin milli astronimik terminologiyada adları. Kosmik obyektlərin elmi və xalq adları. Xalq kosmonimlərində linqvistik, tarixi, etnoqrafik informasiya.

**Zoonimika**

Zoonimlər onomastik leksikanın bir bölməsi kimi. Azərbaycan zoonimiyasının tematik bölmələri. Zoonimlərin

nominasiyasının xarakteri və sözyaratma üsulları. İnsanın diqqət obyektinə çevrilən heyvanların ada malik olma bacarığı.

**Fitonimika**

«Fitonim» anlayışı. Fitonimlərin xüsusiyyətləri

**Ktematonimika**

Ktematonimika anlayışı. Ktematonimlərin növləri və xüsusiyyətləri.

**Əsas ədəbiyyat**

1. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. B., 1987.
2. Azərbaycan onomalogiyasına dair biblioqrafiya. I. B., 1987; II. B., 2000.
3. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. B., 1991.
4. Hacıyev A. Azərbaycan dilinin onomastik sistemi. B., 1990.
5. Həbibli R. Azərbaycan onomastik lüğətləri. B., 2000.
6. Xalıqov F. Folklor onomastikası. B., 1998.
7. İsrafilova R., Məşədiyev Q., Cəfərov Q. Azərbaycan dilinin onomastikası. Oçerklər. B., 1987.
8. Qurbanov A. Poetik onomastika. B., 1988.
9. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I-II cild, B., 2004.
10. Məmmədov N. Azərbaycan Respublikasının oronimləri. B., 1999.
11. Məmmədov N. Toponimika. B., 2006.
12. Mollazadə S. Azərbaycan toponimləri. B., 1985.
13. Mustafayeva Q. Adların üslubi imkanları. B., 1990.
14. Paşa Aydın. Azərbaycan şəxs adları. B., 1996.
15. Paşa Aydın. Azərbaycan antroponimiyasının leksik problemləri. B., 1997.
16. Verdiyeva Z. Köməkçi ad kateqoriyaları. B., 1990.

**Əlavə ədəbiyyat**

17. Axundov A. Torpağın köksündə tarixin izləri. B., 1983.
18. Azərbaycan onomastikası problemləri. I – X, B., 1987-2002.
19. Azərbaycan SSR inzibati-ərazi bölgüsü. B., 1979.
20. Bakı şəhərinin toponimik məlumat kitabı. B., 1999.
21. Budaqov B. Türk uluslarının yer yaddaşı. B., 1994.

22. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları. Tbilisi, 1983.
23. Əliyeva R. Azərbaycan toponimləri. B., 2002.
24. Əhmədov T. El-obamızın adları. B., 1984.
25. Həbibli R. Onomastik lüğətlərin tərtib prinsipləri. B., 2001.
26. Qurbanov A. Azərbaycanlı adları. Uşağa necə ad seçməli. B., 1993.
27. Məmmədov N. Azərbaycanın yer adları. B., 1993.
28. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. B., 1997.
29. Sadıqov Z. Azərbaycan dilində şəxs adları. Nam.diss. B., 1975.
30. Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycanın coğrafi adları. B., 1972.

# Ədəbiyyat


1. Adilov M., Paşayev A. Azərbaycan onomastikası. B., 1987.
2. Axundov A. Torpağın köksündə tarixin izləri. B., 1983.
3. Azərbaycan onomalogiyasına dair biblioqrafiya. I. B., 1987; II. B., 2000.
4. Azərbaycan onomastikası problemləri. I-X. B., 1987 – 2002.
5. Azərbaycan SSR inzibati-ərazi bölgüsü. B., 1979.
6. Baxşıyeva T. Qafqazın türk mənşəli toponimləri. B., 1979.
7. Bakı şəhərinin toponimik məlumat kitabı. B., 1999.
8. Budaqov B. Turk uluslarının yer yaddaşı. B., 1994.
9. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları. Tbilisi, 1983.
10. Əhmədov T. El-obamızın adları. B., 1984.
11. Əhmədov T. Azərbaycan toponimikasının əsasları. B., 1991.
12. Əhmədova E. Azərbaycan etnonimləri. B., 2007.
13. Əliyev H. Azərbaycan antroponimikasının inkişaf mərhələləri. B., 2004.
14. Əliyeva D. Toponimlərin üslubi-linqvistik xüsusiyyətləri. B., 2000.
15. Əliyeva R. Azərbaycan toponimləri. B., 2002.
16. Əsgərov N. Areal türk onomastik vahidlərinin linqvistik xüsusiyyətləri. B., 2005.
17. Hacıyev A. Azərbaycan dilinin onomastik sistemi. B., 1990.
18. Həbibli R. Azərbaycan onomastik lüğətləri. B., 2000.
19. Həbibli R. Onomastik lüğətlərin tərtib prinsipləri. B., 2001.
20. Hüseynzadə Ç. Orta əsrlər ərəbdilli yazılı abidələrdə türk mənşəli antroponimlər. B., 2011.

21. Xalıqov F. Folklor onomastikası. B., 1998.
22. Xalıqova R. Azərbaycan antroponimiyasının inkişaf yolları. B., 2009.
23. İsmayıloğlu C. XI yüzilliyin tarixi onomastik leksikası (Mahmud Kaşğarlının “Divanü lüğat-it-türk” əsəri əsasında). B., 2008.
24. İsrafilov R., Məşədiyev Q., Cəfərov Q. Azərbaycan dilinin onomastikası. Oçerklər. B., 1987.
25. Qurbanov A. Poetik onomastika. B., 1988.
26. Qurbanov A. Azərbaycanlı adları. Uşağa necə ad seçməli. B., 1993.
27. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. I-II cild, B., 2004.
28. Гурбанова Ф. Структурные особенности антропонимов. Б., 1999.
29. Məmmədov N. Azərbaycan yer adları. B., 1993.
30. Məmmədov N. Azərbaycan Respublikasının oronimləri. B., 1999.
31. Məmmədov N. Toponimika. B., 2006.
32. Məşədiyev Q. Azərbaycan toponimlərinin tarixi-linqvistik təhlili. B., 2007.
33. Mirzəyev H. Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz. B., 1997.
34. Mollazadə S. Azərbaycan toponimləri. B., 1985.
35. Mustafayeva Q. Adların üslubi imkanları. B., 1990.
36. Paşa Aydın. Azərbaycan şəxs adları. B., 1996.
37. Paşa Aydın. Azərbaycan antroponimiyasının leksik problemləri. B., 1997.
38. Sadıqov Z. Azərbaycan dilində şəxs adları. Nam.diss. B., 1975.
39. Verdiyeva Z. Köməkçi ad kateqoriyaları. B., 1990.
40. Yüzbaşov R., Əliyev K., Sədiyev Ş. Azərbaycanın coğrafi adları. B., 1972.